# İNFORMASİYA MENECMENTİNİN AKTUAL PROBLEMLƏRİ (NƏZƏRİ PROBLEMLƏR)

P.F.KAZIMİ
*Bakı Dövlət Universiteti*

*Mütəxəssislər hesab edirlər ki, informasiya kommunikasiya sistemlərinin təkamüli 4 mərhələ keçmişdir. Səssiz, leksik, şifahi- mətnli və sənədli.*

*İnkişafın müxtəlif mərhələlərində informasiyanın bilavasitə özü, informasiya daşıyıcısı, informasiyanın cəmiyyətdə rolu və funksiyası dəyişir, təkmilləşir, transformasiya olunur, yeni şəkil alır və öz tarixi düvrünü səciyyələndirir. Bu baxımdan müxtəlif tarixi dövrlərdə informasiya kommunikasiyalarının yaranması, akumulyasiyası və cəmiyyətin inkişafında oynadığı rol maraq kəsb edir və öyrənilməsi əhəmiyyətlidir.*

***Açar sözlər.*** *İnformasiya menecmenti, İnformasiya təminatı, İnformasiya cəmiyyəti.*

Müasir şəraitdə çox sayda sosial kommunikasiya vasitələri olduqca böyük rol oynamaqda, cəmiyyətin informasiyalaşdırılması prosesində çox əhəmiyyətli işlər görməkdədirlər. İnformasiya bəşəriyyətin bütün tarixi inkişaf mərhələlərində olduğu kimi, XXI əsrdə isə xüsusilə elmi-texniki və sosial tərəqqinin mühüm vasitələrindən biri olmuş, hazırda isə cəmiyyətin informasiyalaşdırılması ilə əlaqədar olaraq aparıcı qüvvəyə çevrilmişdir. Müasir texnologiyaların vasitəsi ilə qlobal informasiya mühiti formalaşdırılmışdır. Bu baxımdan müasir menecmentin informasiya təminatı aktual problem kimi qarşıya çıxır. Eləcədə informasiya menecmenti problemləri gündəmə gəlir.

Müasir dövrdə bir sıra qurumlar informasiyanın emalı proseslərinə cəlb olunmuşdur. Cəmiyyətdə informasiya proseslərinin avtomatlaşdırılması xeyli dərəcədə genişlənmiş, yeni tipli informasiya sistemləri yaradılmışdır və onların funksiyalarından asılı olaraq onları informasiya axtarışı, informasiya idarəetmə, hesablama, məlumatın işlənməsi, kitabxana-informasiya sistemləri və s. adlandırılmışdır. Bu prosesin formalaşma dövrü bitmiş kimi də görsənmir. Proses sürətlə davam edir, transformasiya olur, yeni formalar alır və yeni hibrid sistemlər yaradılır ki, onları birmənalı adlandırmaq mümkün deyil. Hal-hazırda dövlət strukturlarına, iri kommersiya təşkilatlarına informasiya xidmətini təşkil edən çox sayda persanal qrupu cəlb edilmişdir.

Artıq informasiya kütlələrinin fasiləsiz artımı nəticəsində informasiya xidmətində diferensiallaşma baş verməkdədir. Mediya informasiya massivləri, sosial informasiya kütləsi, İnformasiya xidmətinin texniki və proqram təminatı, elmi informasiya mənbələri, hüquqi informasiya xidməti və digər





informasiya xidməti altqrupları yaranmaqdadır. Bütün proseslər daima yeniləşən texnologiyalara əsaslanır.

Yeni informarsiya texnologiyalarına keçid bir sıra vacib və mürəkkəb problemlərin həllini qarşıya qoyur. İnformasiya menecmeti prizmasında bu problemləri 5 qrupa ayırmaq olar:

- Maliyyə problemləri
- Normativ-hüquqi təminat problemləri
- Proqram və texniki təminat problemləri
- Dil təminatı problemləri
- İxtisaslı kadr problemləri

Bu problemlər içərisində dil təminatı problemi Azərbaycan üçün daha kəskin nəzərə çarpmaqdadır. Menecmentin informasiya təminatında dil problemlərinin müxtəlif konventor proqramları vasitəsi ilə həll etmək olursada, informasiya menecerlərinin geniş dil başarıqları mühüm göstərici kimi çıxış edir.

İnformasiya meneceri Milli informasiya məkanının formalaşmasında iştirak edir. Bu istiqamətdə də həll edilməsi vacib olan problemlər mövcuddur.

- Elektron (müasir tip intellektual mülkiyyət) informasiyalara müəlliflik hüququ
- Kopirayt proseslərinin (mülkiyyət hüququ problemləri) hüquqi normativlərinin işlənməsi
- İnformasidan sərbəst istifadənin (informasiya almaq hüququ) hüquqi normaları
- İnformasiya mübadiləsində (qloballaşmada) normativ sənədlərin və standartların işlənməsi
- İnformasiya ehtiyatlarının formalaşdırılmasında (milli resurslar) və istifadəsində kitabxanaların hüquqi statusu .

Kitabxana və informasiya mərkəzləri kommunikasiya və texniki vasitələri ilə birlikdə ölkənin informasiya infrastrukturunu təşkil edir. O cümlədən cəmiyyətin informasiyalaşması səviyyəsi həmin cəmiyyətin inkişaf səviyyəsindən asılıdır. Ölkənin iqtisadi və sosial inkişafı ənənəvi kitabxana proseslərinin sürətlə avtomatlaşdırılmasını tələb edir. Kitabxana proseslərinin avtomatlaşdırılması isə, öz növbəsində müasir kitabxana-informasiya texnologiyalarının tətbiqi ilə sıx əlaqədar.

İnformasiya texnologiyaları – obyektin, prosesin və ya hadisənin, informasiya məhsulunun vəziyyəti haqqında yeni informasiyaların alınması üçün məlumatın (ilkin informasiyanın) toplanması, emalı və mübadiləsində istifadə olunan metod və vasitələrin məcmuudur.

İnformasiya texnologiyalarının inkişafı və onların insan fəaliyyətinin müxtəlif sahələrinə tətbiqi, müasir cəmiyyətin bütün quruluş elementlərini dəyişərək onu transformasiya edir. Xüsusilə kitabxana fəaliyyətinin bütün

sahələrinə sürətlə nüfuz etməkdə olan informasiya texnologiyaları (şəbəkə texnologiyaları), hər bir istifadəçiyə informasiya proseslərində (informasiyanın hazırlanması və yayılması, informasiya xidmətlərinin təqdim edilməsi və onların istifadə edilməsi) iştirak etmək imkanı yaradan şəbəkə infrastrukturunun interaktivliyi, o cümlədən, kommunikasiya mühitinin özünütəşkil və özünüinkişafa uyğunlaşması ilə şərtlənir.

Qeyd etmək lazımdır ki, geniş mənada kommunikasiya sistemləri, şəbəkə texnologiyaları, ilk növbədə internet texnologiyaları sahəsində aparılan tədqiqatlar informasiya menecmentinin həm nəzəri həm də təcrübəsi fəaliyyəti baxımdan çox əhəmiyyətlidir. Qlobal informasiya məkanında aşagıdakı mənzərəni müşaidə edirik.

-Cəmiyyət tərəfindən yaradılan informasiya resurslarından istifadə zamanı imkanların bərabər təmin edilməsi baş verir, o cümlədən coğrafi diskriminasiyaların aradan qaldırılmasıdır. Bu müxtəliflik şəraitində mərkəzi şəhərlər, iri şəhərlərin və ölkənin bütün digər yaşayış məntəqələrinin sakinlərinin aktual informasiyaya çıxış imkanları əhəmiyyətli dərəcədə fərqlənir.

-Kitabxanaların və informasiya mərkəzlərinin bütün informasiya sərvətlərinə rahat, etibarlı və universal müraciət vasitələrinin istifadəçilərə təqdim edilməsi həyata keçir. Bu kitabxanalar və informasiya mərkəzlərinin bazası əsasında informasiya xidmətinin mahiyyətcə yaxşılaşdırmaq, informasiya axtarışı və istifadəsi zamanı əmək və vaxt sərfini azaltmaq, yeni xidmət formaları tətbiq etmək və konkret kitabxanaya və ya kitabxanalar şəbəkəsinə yeni istifadəçi kateqoriyası cəlb etməkdir. Bu cür sistemlərin mövcudluğu kitabxana istifadəçilərinin sayını real dərəcədə artırmağa imkan verir.

-İnformasiyanın cografi paylanmasında dizbalans aradan qaldırılır. Bununlada elm mərkəzləri, informasiya mərkəzləri, elmi və ictimai resurs mərkəzləri yeni simada çıxış edirlər.

Ona görə də informasiyanın elə səmərəli təminat sistemi yaradılmalıdır ki, fəal tələbatçı kateqoriyası informasiya resurslarının operativ və dolğun axtarış imkanları ilə təmin etmiş olsun.

XX əsrin sonlarında CD-ROM texnologiyaları informasiya istehlakçılarının həyatını bir çox istiqamətlərdə dəyişdirdi. İstifadəçilər böyük informasiya və xidmət sərbəstliyi qazandılar. Az bir müddətdə böyük informasiya kütləsini toplamaq, emal etmək, ötürmək və mühafizə etmək imkanları yarandı. Belə ki, CD-ROM-larda kataloqlar, biblioqrafik göstəricilər, təsnifat sistemləri, rubrikatorlar və s. buraxılmağa başlandı. İnformasiya daşıyıcısı kimi yeni stereotiplər yarandı. Böyük informasiya massivlərinin əldə olunması və operativ emalı sahəsində XX əsrin böyük nailiyyəti olan şəbəkə mühitinin formalaşması da mühüm rol oynayır. Şəbəkə mühitinin





formalaşması kitabxanaların və digər informasiya qurumlarının informasiya əlaqələrinin və mübadiləsini qlobal informasiya məkanında yeni səviyyəyə qaldırdı və bu işdə xüsusilə lokal və qlobal (İnternet) şəbəkəsi başlıca yer tutdu.

Bu gün dünyada çoxlu sayda Avtomatlaşdırılmış Kitabxana-İnformasiya Sistemləri (AKİS) mövcuddur. VTLS, İRBİS, Millenium. Follet, Aleph, Ruslan və s. Lakin bu AKİS-lərin hamısı qiymətinə, təyinatına, istifadə edilmə məkanına, işçi yerlərinin sayına, İnternet şəbəkəsinə çıxma imkanına, tam mətnli informasiyaları əks etdirməsinə, davamlılığına, yeniləşmə tezliyinə, müxtəlif dildə olan informasiyaların daxil edilməsinə, yəni müxtəlif əlifbalarda yazmaq imkanına, müxtəlif məlumat bazalarının yaradılması və çoxaldılması sayına və s. xüsusiyyətlərinə görə bir-birlərindən fərqlənirlər. Odurki informasiya menecmenti yaxın zamanlarda öz məzmununu daha da zəhginləşdirəcək və cəmiyyətin daha artıq tələbatı ilə qarşılaşacaq.

Beləliklə informasiya menecmentinin qarşısında duran bir sıra mühüm problemlər və müasir menecmentin informasiya təminatının şərti strukturunu müəyyənləşdirməyə çalışdıq. İnformasiya tələbatçısının xüsusiyyətləri dinamik dəyişməkdədir. Eləcə də informasiya təminatının da strukturu sürətlə dəyişir. Tələb təklifi, təklif tələbi sürətləndirir. Bu müasir dövrümüzün xarakteridir.

## ƏDƏBİYYAT


1. *Xələfov, A.A. Kitabxanaşünaslığa giriş: Dərslik (3 hissədə).-H.3.-B., 2003.-314 s.*
2. *Xələfov A.A. Kitabxana və cəmiyyət. Bakı, Azərnəşr, 2013, 360 s.*
3. *Gurbanov A. Kazimi P. Evaluation of İnformation in Library and Information Activities 47-49. computer and automation technologies (may 9-11, 2014 selcuk university iltek - konya, turkey) proceedings book. 9 - 11 May, 2014. Konya,Turkiye. ekotek.selcuk.edu.tr.*
4. *Moyo, L. Electronic libraies and the emergence of new service paradigms / L. Moyo // The Electronic Libraries.-2004.-Vol 22, N3.-P. 220-230*
5. *Rüstəmov, Ə.M. İnformatika: Qeyri-riyaziyyat ixtisasları üzrə təhsil alan tələbələr üçün dərslik / Ə.M. Rüstəmov.-B.: İqtisad Universiteti nəşriyyatı, 2002.-550 s.*
6. *Земсков, А.И., Шрайберг Я.Л. Электронные библиотеки [Текст]: учеб.пособие / А.И. Земсков, Я.Л. Шрайберг.-М.:ГПНТБ Росии, 2001.- 352 с.*
7. *Система автоматизации библиотек ИРБИС64. Общее описание системы. — М.:ГПНТБ России, 2004. — 259 с.*

8. *Kazımi P.F. İnformasiya mühəndisliyi. Bakı, BDU-nun nəşri, 2010,230 s.*

## CURRENT PROBLEMS OF INFORMATION MANAGEMENT

**P.F.KAZYMI**

***SUMMARY***

*The article deals with the problem of information management, information provision and questions of modern management. Authors conductive theoretical analysis of information The Society.*

***Key words.*** *Information management, information security, information Società.*

## АКТУАЛЬНЫЕ ПРОБЛЕМЫ ИНФАРМАЦИОННОГО МЕНЕДЖМЕНТА

**П.Ф.КАЗЫМИ**

***РЕЗЮМЕ***

*В статье рассматривается проблемы информационного менеджмента, и вопросы информационного обеспечение современного менеджмента. Авторы проводять теоретический анализ информационного общество.*

***Клучевые слова.*** *Информационный менеджмент, информационная обеспечение, информационная общества.*